“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 8 dekabr 2021-ci il №96 (2604) https://mod.gov.az Qiyməti 30 qəpik

Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

Quruculuq işləri həm Qarabağda, həm də Zəngəzurda aparılır

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva dekabrın 6-da Quba rayonuna səfər ediblər. Əvvəlcə ulu öndər Heydər Əliyevin Quba şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyublar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Quba Olimpiya İdman Kompleksində və Heydər Əliyev Fondu tərəfindən Qubanın Birinci Nügədi kəndində inşa olunan 1 nömrəli tam orta məktəbdə yaradılan şəraitlə tanış olublar.

Dövlətimizin başçısı, birinci xanım və qızları "Quba ABAD Factory" qablaşdırma vasitələrinin istehsalı müəssisəsinin açılışında iştirak ediblər. Səfər çərçivəsində dövlətimizin başçısı Quba-Qonaqkənd avtomobil yolunun açılışını edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Qonaqkənd qəsəbəsində yeni inşa olunan Mədəniyyət Evində yaradılan şəraitlə tanışlıqdan sonra qəsəbə sakinləri ilə görüşüblər.

Səmimi söhbət zamanı dövlətimizin başçısı Qonaqkəndə ilk dəfə gəldiyini, bu kəndin Azərbaycan tarixində çox böyük yer tutduğunu, kənd camaatının zəhmətkeş və mərd olduğunu, həmişə Azərbaycan dövlətçiliyinin keşiyində durduğunu vurğulayıb.

Görüş zamanı Vətən müharibəsindən söz açan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bildirib ki, bu, bizim hamımızın Qələbəsidir. "Hər bir Azərbaycan vətəndaşı öz əməyi ilə, öz işi ilə o müqəddəs günü yaxınlaşdırırdı. Biz bütün işğal dövründə Qarabağı ürəyimizdə saxlamışdıq və Qarabağı görməyən gənc nəsil yetişdi. Onlar Qarabağı canıqanı bahasına azad etdilər. Tarixi ədaləti bərpa etdik, xalqımızın ləyaqətini bərpa etdik. İndi isə artıq yeni dövr başlayır".

İşğaldan azad olunan ərazilərdə aparılan quruculuq işlərindən danışan dövlətimizin başçısı bildirdi ki, quruculuq işləri həm Qarabağda, həm də Zəngəzurda aparılır. "Eyni zamanda, bizim son vaxtlar apardığımız işlər onu göstərir ki, hər hansı bir revanşist meyil olarsa, onun məsələsi dərhal yerindəcə həll olunacaq. Çünki müharibədən sonra Ermənistan tərəfindən bir neçə dəfə belə cəhdlər oldu və onun acı nəticələrini onlar özləri gördülər. Ona görə hələ ki, gec deyil, mən onlara artıq dəfələrlə müraciət edərək demişdim, bizim şərtlərimizi qəbul etməlidirlər, yollarla, kommunikasiyalarla bağlı hər hansı bir qeyri-səmimi yanaşmaya son qoyulmalıdır. Əgər belə olarsa, onda Cənubi Qafqazda bütün xalqlar sülh, əminamanlıq şəraitində yaşayacaq. Çünki biz istədiyimizə nail ola bilmişik, bunu hər kəs gördü. Ermənistan da gördü, dünya da gördü, heç kim bizi saxlaya bilmədi. Müharibə dövründə bizi saxlamaq istəyənlər olub, kifayət qədər güclü dairələr olub, amma bizi dayandıra bilmədilər. Mən demişdim ki, bizə tarix versinlər torpaqlarımızdan nə vaxt çıxır, o an biz dayanmağa hazırıq. Bu gün də eyni sözü deyirəm. Amma deyirəm ki, bizə tarix versinlər, Zəngəzur dəhlizi nə vaxt açılacaq və belə olan halda, heç bir problem olmayacaq. Ona görə hesab edirəm ki, həm Ermənistan rəhbərliyi, həm Ermənistan ictimaiyyəti, əhalisi bunu başa düşməlidir. Biz istədiyimizə nail olmuşuq, oluruq və olacağıq. Yaxşı olar ki, bu məsələ konstruktiv şəkildə danışıqlar yolu ilə, qarşılıqlı anlaşma yolu ilə həll olunsun. Çünki İkinci Qarabağ müharibəsi bütün dünyaya xalqımızın iradəsini, gücünü və birliyini göstərdi. Yol boyunca gələndə gördüm, şəhidlərin şəkilləri vurulub. Hər bir yerdə belədir, - mən son vaxtlar Qarabağ bölgəsinə tez-tez gedirəm, - kəndlərdə şəhidlərin şəkilləri vurulub. Yəni, bu Zəfəri bütün Azərbaycan xalqı əldə edib. Hər bir vətəndaş, hər bir rayon sakini, hər bir nümayəndə. Ona görə bu tarixi hadisədir və cəmi bir il keçib üstündən, görün nə qədər böyük işlər görmüşük. Mən Qarabağ, Zəngəzur bölgəsinə bəlkə də 10 dəfədən çox getmişəm. Amma, eyni zamanda, Azərbaycanın qalan yerlərini də yaddan çıxarmıram".

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Qonaqkənd sakinləri ilə birlikdə ulu öndər Heydər Əliyevin qəsəbənin mərkəzində ucaldılan abidəsinin önünə gül dəstəsi qoydular.

Sonra xatirə şəkli çəkdirildi.

AZƏRTAC-ın materialları əsasında

Azərbaycanın Müdafiə naziri Pakistan tərəfinə başsağlığı verib

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Pakistan İslam Respublikasının Federal Müdafiə naziri cənab Pervez Xattaka, Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri general Nadim Razaya və Quru Qoşunları komandanı general Qamar Caved Bacvaya başsağlığı ünvanlayıb.

Başsağlığında deyilir: "Hərbi helikopterin qəzaya uğraması nəticəsində qardaş Pakistan Silahlı Qüvvələrinin hərbi qulluqçularının həlak olması xəbəri məni dərindən kədərləndirdi.

Həlak olan hərbi qulluqçulara Allahdan rəhmət diləyir, onların yaxınlarının dərdlərinə şərik olur, ailələrinə dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin".

Müdafiə nazirinin müavini Moskvaya yola düşüb

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, dekabrın 6-da Müdafiə nazirinin müavini - Maddi-Texniki Təminat Baş İdarəsinin rəisi general-leytenant Nizam Osmanov hərbi-texniki əməkdaşlıq üzrə Azərbaycan-Rusiya Hökumətlərarası Komissiyasının 14-cü iclasında iştirak etmək üçün Moskva şəhərinə yola düşüb.

Səfər dekabrın 9-dək davam edəcək.

Hərbi attaşelər və beynəlxalq təşkilatların nümayəndələrinin iştirakı ilə toplantı keçirilib

Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində ölkəmizdə akkreditə olunan xarici dövlətlərin hərbi attaşeləri və beynəlxalq təşkilatların nümayəndələrinin iştirakı ilə illik toplantı keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, toplantıda qonaqlara regiondakı hərbi-təhlükəsizlik məsələləri, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında Vətən müharibəsində qazanılan Qələbədən sonra Azərbaycan Ordusunda aparılan islahatlar, beynəlxalq hərbi əməkdaşlıq çərçivəsində il ərzində həyata keçirilən tədbirlər barədə ətraflı məlumat verilib və 2022-ci ildə planlaşdırılan fəaliyyətlər diqqətə çatdırılıb.

Tədbirdə hərbi attaşelərin sualları cavablandırılıb.

Qonaqlar bu cür tədbirlərin keçirilməsinə görə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını bildirib və gələcəkdə də faydalı birgə əməkdaşlığın davam edəcəyinə ümidvar olduqlarını vurğulayıblar.

NATO-nun mobil təlim qrupu tərəfindən kurs keçirilir

Müdafiə Nazirliyinin NATO ilə 2021-ci il üçün Fərdi Tərəfdaşlıq üzrə Əməkdaşlıq Proqramı çərçivəsində "N" hərbi hissəsində Hərbi Hava Qüvvələrinin hərbi qulluqçularının və NATO-nun Ramştayn Hərbi Hava Qüvvələri Komandanlığının mobil təlim qrupunun iştirakı ilə "Aviasiya əməliyyatları" mövzusunda təlim kursu başlayıb.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, kurs müddətində HHQ müvafiq bölmələrinin fəaliyyətlərinin ƏİK standartlarına uyğun təşkili, mühafizə və təhlükəsizlik tədbirlərinin təmin edilməsi və digər mövzularda brifinqlər təqdim olunur.

Kurs dekabrın 9-dək davam edəcək.

Medallı igidlərimiz

Gələcək nəsillərə örnək olan qəhrəmanlar

Vətən müharibəsində böyük qəhrəmanlıqlar göstərən, yurdumuzun azadlığı uğrunda vuruşan hərbçilərlə hər dəfə görüşəndə ürəyimiz dağa dönür. Söhbətlərinə qulaq asdıqca onların hünər və qəhrəmanlıqlarına heyran oluruq. Vətənpərvərlik hissi yüksək olan bu oğullar qorxmadan, cəsarətlə, hünərlə torpaqlarımızın azadlığı uğrunda döyüşlərə atıldılar. 44 gün ərzində 28 ildən çox erməni əsarətində qalan torpaqlarımızı işğaldan azad etdilər. Düşmənə bir-birinin ardınca sarsıdıcı zərbələr vurdular. Qəsbkarlar bu sarsıdıcı və güclü zərbələr qarşısında dayana bilməyərək ağır itkilər verib, silah-sursatlarını da döyüş meydanında atıb qaçdılar.

İkinci Qarabağ müharibəsində böyük hünər göstərən hərbçilərimizdən biri də gizir Qinyaz Əlipaşayevdir. Onu bizimlə zabit Alim Qasımzadə tanış edərkən haqqında xoş sözlər dedi. Bildirdi ki, gizir Qinyaz Əlipaşayev də Vətən müharibəsində əvvəldən sonadək cəsarətlə vuruşan hərbçilərimizdən biridir. Özüyeriyən artilleriya qurğusunun komandiri olan gizir Qinyaz Əlipaşayev torpaqlarımızın azadlığı uğrunda gedən əks-hücum əməliyyatlarında üzərinə düşən döyüş tapşırıqlarının öhdəsindən bacarıqla gəlib.

Macal tapıb Qinyazla söhbətləşdik. Əvvəlcə onun ömür və xidmət yolları ilə tanış olduq. Öyrəndik ki, o, 7 iyul 1996-cı ildə Şəki rayonunun Suçma kəndində dünyaya göz açıb. Orta təhsilini başa vurandan sonra ordu sıralarına çağırılıb. 2014-2016-cı illərdə əsgər kimi "N" hərbi hissəsində xidmət edib. Ordu sıralarında vətəndaşlıq borcunu yerinə yetirdiyi dövrdə hərbi bilikləri, silah və texnikanın sirlərini dərindən mənimsəyib. Bir qayda olaraq, dərs və təlimlərdə bacarığı ilə fərqlənib. Nümunəvi xidməti ilə həm komandirlərinin, həm də əsgər dostlarının rəğbət və hörmətini qazanıb. Xidmətini başa vurub tərxis olanda hərbi xidmətə olan sevgi və məhəbbət onu ordu sıralarında saxlayıb. 2017-ci ildə Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində gizirlər kursunda oxumağa başlayıb. Kurs müddətində Qinyaz artilleriya qurğularının sirlərini dərindən mənimsəyib. Qısa müddət ərzində kursda bacarıqlı və peşəkar kursantlardan biri olub. Həm nəzəri, həm də praktiki məşğələlərdə peşəkarlığı ilə fərqlənib. Kursu uğurla başa vurduqdan sonra gizir rütbəsinə layiq görülüb və özüyeriyən artilleriya qurğusunun komandiri kimi xidmətə başlayıb.

2020-ci il sentyabrın 27-də erməni qəsbkarlarının təxribatı nəticəsində Vətən müharibəsi başlayanda gizir Qinyaz Əlipaşayev də əks-hücum əməliyyatlarında iştirak edib. Onun döyüş yolu Ağdamdan başlayıb. Həmin gərgin günlərdən söz açan gizir dedi ki, elə ilk saatlardan hərbi hissəmizin şəxsi heyəti əks-hücum əməliyyatlarına cəlb olundu. "Təcili olaraq bölüyümüzü Ağdam istiqamətinə göndərdilər. Biz təyin olunan məntəqəyə çatanda bölgədə gərgin döyüşlər gedirdi. Düşmən yeni ərazilərimizi işğal etmək üçün mövqelərimiz üzərinə hücuma keçmişdi. Nə qədər cəhd etsələr də, işğalçılar bir addım olsun belə irəliləyə bilmirdilər. Çünki ordumuzun hissələri qəsbkarlara qarşı ciddi müqavimət göstərirdi. Dayanmaq bilmədən düşmən mövqelərinə artilleriya zərbələri endirirdik. Sentyabrın 28-də müşahidə etdik ki, erməni işğalçıları tanklarından birini ağır tonnajlı yüklər daşıyan maşına mindirib döyüş meydanından çıxarmaq istəyir. Fürsəti əldən vermədən sərrast atəşlə düşmənin həm tankını, həm də ağır tonnajlı yüklər daşıyan maşınını vurub darmadağın etdik. Düşmənin planı pozuldu. Bir neçə gündən sonra bizi Füzuli rayonuna göndərdilər. Həmin günlər bu istiqamətdə gərgin döyüşlər gedirdi. Əks-hücum əməliyyatlarının birində xidmət yoldaşımız, gizir İsgəndərov Əsəd Bəybala oğlu şəhid oldu. Onun ölümü bizim düşmənə olan qisas və nifrət hissimizi daha da artırdı. Ertəsi gün döyüş zamanı biz xidmət yoldaşımızın qisasını aldıq. Əks-hücum əməliyyatı zamanı bu istiqamətdə işğalçıların üç artilleriya qurğusunu və onlarla canlı qüvvəsini məhv etdik".

Gizir Qinyaz Əlipaşayevin şərəfli döyüş yolu olub. Ağdamdan başlanan döyüş yolu Füzulidən, Cəbrayıldan, Zəngilandan, Qubadlıdan və Laçından keçib. Özüyeriyən artilleriya qurğusunun komandiri əks-hücum əməliyyatları zamanı üzərinə düşən döyüş tapşırıqlarını yüksək peşəkarlıqla yerinə yetirib. Vətən müharibəsində göstərdiyi igidlik və qəhrəmanlığa görə gizir Qinyaz Əlipaşayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları ilə "Ağdamın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medallarına layiq görülüb. Əminik ki, belə medallı igidlərin şərəfli döyüş yolu gələcək nəsillər üçün örnək olacaq.

Vahid MƏHƏRRƏMOV
"Azərbaycan Ordusu"

Bakıda Azərbaycan və Türkiyə hərbi pilotlarının birgə təlim uçuşları icra olunub

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Türkiyə Respublikasının TUSAŞ şirkətinin istehsalı olan iki ədəd "Hürkuş" təlim təyyarəsi nümayiş məqsədilə Bakıya gətirilib.

Dekabrın 3-də Hərbi Hava Qüvvələrinin "N" hərbi hissəsində keçirilən "Yüksək səviyyəli müşahidəçi günü"ndə "Hürkuş" hərbi təyyarələrinin nümayiş uçuşları icra olunub.

Tədbirdə Müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Ramiz Tahirov, Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Cahit Bağcı, hərbi attaşe general-mayor Zekeriya Yalçın və başqaları iştirak ediblər.

"Hürkuş" təlim təyyarəsinin taktiki-texniki xüsusiyyətləri və iş prinsipi barədə brifinq təqdim olunub.

Sonra hər iki qardaş ölkənin hərbi pilotlarının ölkəmizin hava məkanında birgə nümayiş uçuşları icra edilib.

General-leytenant Ramiz Tahirov pilotların hazırlığını yüksək qiymətləndirib, onlara gələcək xidmətlərində uğurlar arzulayıb.

Komando hərbi hissəsində taktiki təlim keçirilib

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, 2021-ci ilin döyüş hazırlığı planına əsasən, Quru Qoşunlarının Əməliyyat (Komando) hərbi hissəsində döyüş atışlı taktiki təlim keçirilib.

Şəxsi heyət "Həyəcan" siqnalı ilə daimi dislokasiya məntəqəsini tərk edərək cəmləşmə rayonuna hərəkət edib.

Təlimin senarisinə uyğun olaraq verilən müdaxiləyə əsasən hərəkətdən birbaşa döyüş düzülüşünə keçən heyət atəş mövqelərini tutaraq atıcı silahlardan və qumbaraatanlardan atışlar icra edib.

Təlimin əsas məqsədi şəxsi heyətin atıcı silahlardan istifadəetmə bacarıqlarının və Əməliyyat (Komando) bölmələrinin döyüş qabiliyyətinin daha da yüksəldilməsi, eləcə də komandir heyətinin bölmələri idarəetmə bacarıqlarının təkmilləşdirilməsidir.

Təlimdə qarşıya qoyulan bütün tapşırıqlar müvəffəqiyyətlə icra olunub.

Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində "Sağlam gənclik-sağlam gələcək" layihəsi çərçivəsində tədbir keçirilib

Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin hazırladığı "Sağlam gənclik-sağlam gələcək" layihəsi çərçivəsində silsilə tədbirlər keçirilir. Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində keçirilən tədbirdə Heydər Əliyev adına Hərbi Liseyin kursantları və Naxçıvan Qarnizonu tam orta məktəbinin şagirdləri iştirak ediblər.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, tədbirdə əvvəlcə şəhidlərimizin əziz xatirəsi yad edilib və Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Naxçıvan Qarnizonu tam orta məktəbinin direktoru, Azərbaycan Respublikasının əməkdar müəllimi Natiq Əhmədov, Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin dekanı, dosent Elsevər Əsədov, layihənin rəhbəri, Təməl tibb fənləri kafedrasının müdiri, tibb üzrə fəlsəfə doktoru İlhamə Mustafayeva, Təməl tibb fənləri kafedrasının baş müəllimi Bəxtiyar Hüseynov və digər çıxış edənlər "Sağlam gənclik-sağlam gələcək" layihəsinin uşaq, yeniyetmə və gənclərin maarifləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıblar. Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin təşəbbüsü və ulu öndər Heydər Əliyevin himayəsi ilə 1999-cu ildə fəaliyyətə başlayan Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsində tələbələrin təhsili üçün lazımi şərait yaradılıb. Universitetin Tibb fakültəsinin nəzdində açılan, 2021-2022-ci tədris ili üçün tələbə qəbulu aparan Hərbi tibb ixtisası muxtar respublikada ali təhsilli hərbi tibbi kadrların hazırlığı istiqamətində atılan mühüm addımdır. Təbii ki, dövlət qayğısından və yaradılan şəraitdən maksimum yararlanaraq yeni layihələr həyata keçirilir və bu tədbirlərdən biri də ulu öndər Heydər Əliyevin "İnsanların sağlamlığı dövlətin və cəmiyyətin sağlamlığıdır" fikrini əsas götürərək hazırlanan "Sağlam gənclik-sağlam gələcək" layihəsidir. Gənc nəslə sağlam həyat tərzinin aşılanması və əhali arasında səhiyyə maarifi işinin təşkili məqsədilə bu layihənin muxtar respublikamızın bütün təhsil müəssisələrində icra ediləcəyi diqqətə çatdırılıb.

Tibb fakültəsində təhsil alan tələbələrin vətənpərvərlik mövzusunda hazırladıqları flaşmob və təqdimatlarla yanaşı, slaydlar vasitəsilə müxtəlif mövzularda çıxışları dinlənilib, ekstremal şəraitlərdə təcili təxirə salınmaz tibbi yardımın göstərilməsi nümayiş etdirilib. Tələbələr tərəfindən ilk tibbi yardımın göstərilməsi təqdimatlar, simulyasiyalar və canlı şəxslər üzərində tətbiq edilib.

Təqdimatlardan sonra universitetin həkim və tələbə heyəti Heydər Əliyev adına Hərbi Liseyin kursantlarının və Naxçıvan Qarnizonu tam orta məktəbinin şagirdlərinin müayinəsini aparıblar və maarifləndirici kitabçaları tədbir iştirakçılarına paylayıblar.

Tədbirin sonunda "Sağlam gənclik-sağlam gələcək" layihəsinin həyata keçirilməsində fəal iştirak edən Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin tələbələrinə Əlahiddə Ümumqoşun Ordu Komandanlığı tərəfindən fəxri fərmanlar təqdim edilib.

Səhifəni hazırladı:
İsa ELDAROĞLU

Təlim

Azərbaycan əsgəri güclü və qüdrətli olduğunu bir daha göstərdi

Azərbaycan Ordusu üçün uğurlarla başa çatan, Zəfərlə yekunlaşan, 44 gün davam edən və 28 illik işğala son qoyan Vətən müharibəsi bir daha göstərdi ki, döyüş hazırlığı və təcrübəsi yüksək olan zabit, əsgər həmişə savaşda düşmənə qalib gəlir, iştirakçısı olduğu əməliyyatlardan qələbə ilə çıxır. Qeyd olunan bütün bu və digər mühüm amilləri nəzərə alan Müdafiə Nazirliyinin rəhbərliyi şəxsi heyətin döyüş hazırlığının artırılması məqsədilə hərbi hissə və birləşmələrdə təlimlər keçirir. Səmərəli keçən təlimlərin iştirakçısı olan zabit və əsgərlər daim yeni döyüş vərdişlərinə yiyələnir, biliklərini daha da təkmilləşdirirlər. Komandanlıq döyüş hazırlığının artırılmasına təkan verən təlimlərin keçirilməsini daim diqqət mərkəzində saxlayır.

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi döyüş hazırlığı planına uyğun olaraq bu günlərdə döyüş hazırlığının artırılması məqsədilə təlim mərkəzində quru qoşunlarının tabeliyində olan raket və artilleriya qoşunlarının təlim-metodiki toplanışı keçirildi. Bir neçə gün davam edən təlim-metodiki toplanışda hərbi hissələrin rəhbər heyəti iştirak edirdi. Təlim prosesində Vətən müharibəsində qazanılan təcrübədən də istifadə olunurdu. İştirakçısı olduğumuz təlimin yaddaqalan anlarını oxucularımızın diqqətinə çatdırırıq.

...Səhərdir. İlıq payız günəşi asta-asta üfüqdən yer üzünə boylanır. Günəşin gözləri qamaşdıran şüaları yaydakı kimi isti deyil. Çox da soyuq olmayan meh əsir. Elə bil hava da özünü təlimin gedişinə kökləyib. Ətrafda sakitlik hökm sürür. Bu sakitliyi hərdən yaxınlıqdan keçən hərbi maşınların uğultusu pozur. Atışa hazır olan artilleriya qurğuları bir xətt boyunca düzülüb. Heyət nəfərləri də topun yanında tapşırığı yerinə yetirməyə hazır dayanıb. Öyrənirik ki, təlim prosesində hədəflərə bu artilleriya qurğularından atəş açılacaq. Atəşi zəngin döyüş təcrübəsi olan Azərbaycan əsgəri açacaq. Təlim-metodiki toplanışın iştirakçıları olan zabitlər artilleriya qurğularının yaxınlığında sıraya düzülüblər. Sıranın qarşısında dayanan zabit İslam Əmrağayev təlim-metodiki toplanışın planı və gedişatı haqqında zabitlərə ətraflı məlumat verir.

Verilən məlumatı dinlədikcə öyrənirik ki, təlim-metodiki toplanışın gedişində mexanikləşdirilən birləşmənin artilleriyası ilə dağlıq ərazidə atış və atəşin idarə edilməsinin döyüş atışlı nümunəvi məşğələsi keçiriləcək. Həmçinin bununla yanaşı, məşğələ prosesində mexanikləşdirilən birləşmənin müdafiə olunan qanunsuz birləşmələrin üzərinə hücuma keçməsi, qanunsuz silahlı birləşmələrin əks-hücumunu dəf etməsi və birləşmənin ikinci eşelonunun döyüşə cəlb edilməsi zamanı artilleriya atəşinin idarə olunması prosesi nümayiş etdiriləcək. Deməli, təlim-metodiki toplanışın gedişi prosesində öyrənməli və müşahidə edilməli çox dəyərli anlar olacaq. Buna görə də təlimdə iştirak edən təcrübəli zabitlər məşğələnin gedişini diqqətlə izləyirlər.

Ərazi ilə yaxından tanış olduqdan sonra iştirakçılar vaxt itirmədən komanda məntəqəsinə yollanırlar. Təlimin qaydalarına uyğun olaraq onlar nümunəvi məşğələnin gedişini buradan izləyəcəklər. Komanda məntəqəsində iştirakçıları zabit Kamil Allahverdiyev qarşılayır və burada yaradılan şərait haqqında, həmçinin məşğələnin mövzusu barədə geniş məlumat verir. Bir neçə dəqiqə ərzində hər kəs öz yerini tutur. Həm məntəqənin özü, həm də iştirakçılar təlimə hazırdır.

İştirakçılar məşğələnin gedişini izləmək üçün özlərinə əlverişli mövqe tuturlar. Bir azdan raket və artilleriya qoşunlarının təlim-metodiki toplanışı başlayır. Rabitə qurğuları bir an içində işə düşür. Heyət nəfərlərinin atışa hazır olması barədə komandalar verilir. Zabitlər Elsevər Hümbətov, Raqif Sarıyev məşğələnin mövzusu və gedişi barədə bir daha təlimin rəhbərinə, həmçinin iştirakçılara məlumat verirlər. Qısa müddət ərzində hədəflərə qədər olan məsafələr ölçülüb hesablanır. Şərti düşmənin yeri, səmti müəyyən edilib dəqiqləşdirilir. Müəyyənləşdirilən hədəflərin yerləşdiyi ərazinin koordinatları rabitə vasitəsilə artilleriyaçılara ötürülən kimi "Atəş" əmri verilir. Mərmilər uğuldaya-uğuldaya hədəflərə doğru uçur. Və bir an içində ətrafı gurultu səsləri bürüyür. Bir göz qırpımında təlim keçirilən geniş ərazi döyüş meydanını xatırladır.

Toplanış iştirakçılarının bütün diqqəti hədəflərin yerləşdiyi əraziyə dikilib. Zabitlər mərmilərin düşdüyü əraziləri müşahidə edir, dəqiq hesablamalar aparırlar. Və çox keçmir ki, atışların nəticələri elan edilir. Məlum olur ki, həm təlimlərdə, həm də Vətən müharibəsində zəngin döyüş təcrübəsi qazanan artilleriyaçılar hədəfləri dəqiq vurublar. Nümunəvi atış çalışması şəxsi heyət tərəfindən yüksək bacarıqla yerinə yetirilib. Artilleriyaçılar hədəfləri vurarkən peşəkarlıq nümayiş etdiriblər. Bütün bu müsbət nəticələr Azərbaycan zabitinin, Azərbaycan əsgərinin yüksək döyüş hazırlığına malik olmasından xəbər verir. Belə yüksək döyüş hazırlığı isə gələcək böyük uğurlara zəmin yaradır.

Təlimin gedişinə cavabdeh olan zabitlər artilleriyaçıların vurduqları hədəfləri xəritə üzərində bir daha iştirakçılara göstərirlər. Hədəflərin dəqiq vurulması hamını sevindirir. Heç kimə sirr deyil ki, belə uğurlar, belə müsbət nəticələr asanlıqla qazanılmır. Artilleriyaçı əsgərlərin bu səviyyəyə yüksəlməsi üçün onların komandirləri xeyli əmək sərf ediblər. Təlim-məşqlərdə hərbi bilik və döyüş vərdişlərini heyət nəfərlərinə səbirlə, təmkinlə aşılayıblar. Əsgərlər uğura çatmaq üçün səmərəli xidmət yolu keçiblər. Hərbi bilikləri həvəslə, döyüşlərdə, təlimlərdə qələbələr qazanmaq üçün mənimsəyiblər.

Təlim-metodiki toplanışın iştirakçıları qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsi üçün tələb olunan bütün praktiki və zəruri hərəkətləri yaxından izlədilər. Müvafiq təhlillər və hesablamalar apardılar. Nəticə hamı üçün gözlənilən idi. Çünki topçularımız peşəkar olduqlarını Vətən müharibəsində dəqiq atəş zərbələri ilə sübut ediblər. Böyük peşəkarlıqla nümayiş etdirilən nümunəvi məşğələ bir daha əsgər və zabitlərimizin döyüş hazırlığının yüksək olduğunu göstərir. Azərbaycan Ordusu hər an doğma yurdunu, ölkəsinin müstəqilliyini qorumağa qadirdir.

Döyüş atışlı nümunəvi məşğələ başa çatdıqdan sonra təlim-metodiki toplanış nəzəri dərslərlə davam etdirildi. Toplanışın iştirakçısı olan təcrübəli zabitlər əməli məşğələlərdə qazanılan uğur və müsbət nəticələri nəzəri cəhətdən təhlil etdilər. Atışın daha da səmərəli aparılması üçün müəyyən məsləhət və tövsiyələr verdilər, fikir və mülahizələrini bildirdilər.

Quru qoşunlarının tərkibində olan raket və artilleriya qoşunlarının təlim-metodiki toplanışının növbəti günü də olduqca səmərəli keçdi. Həmin gün iştirakçılara avtomatik idarəetmə sistemləri ilə təchiz edilən 82 millimetrlik minaatan batareyasının nümunəvi döyüş atışlı taktiki təlimi nümayiş edildi. Toplanışda iştirak edən zabitlər əvvəlcə minaatan qurğularının yerləşdiyi əraziyə gəldilər. Burada atəşin aparılacağı yerlərə baş çəkdilər. Atəşdən əvvəl tapşırıq onlara nəzəri cəhətdən izah olundu.

Toplanışda iştirak edən zabitlər komanda məntəqəsinə qayıtdıqdan sonra atəşin aparılmasına cavabdeh olan hərbçilər əvvəlcə döyüş atışlı təlim haqqında qısa məlumat verdilər. Sonra hədəflər müəyyənləşdirildi, hesablamalar aparıldı. Hədəflərə qədər olan məsafə dəqiqləşdirildikdən sonra rabitə qurğuları "dilə" gəldi. Hədəflərə qədər dəqiqləşdirilən məsafələrin koordinatları minaatanlara ötürüldü və "Atəş" əmri verildi. Minaatanlar "Atəş" əmri alan kimi qurğuları verilən koordinatlar istiqamətinə tuşlayıb tapşırığı yerinə yetirdilər. Mərminin qulaqbatırıcı səsi ildırım sürətilə ətrafa yayıldı. Təlim iştirakçıları bütün nəzərlərini hədəflər vurulan əraziyə yönəltdilər. Atəş açılan kimi hədəflərin vurulduğu ərazi qara tüstüyə büründü. Minaatanlar verilən koordinatlar üzrə atəşi başa çatdırandan sonra nəticələr elan edildi. Məlum oldu ki, minaatanlar hədəfləri dəqiq vurublar. Onların atəş zərbələri hədəfdən yayınmayıb. Topçular kimi, minaatanlar da qarşıya qoyulan tapşırıqların öhdəsindən bacarıqla gəliblər.

Müdafiə nazirinin müavini, Quru Qoşunların Komandanı general-leytenant Ənvər Əfəndiyev komanda məntəqəsinə gələrək təlim-metodiki toplanışın iştirakçıları ilə görüşdü, dərs və məşğələlərin gedişi ilə yaxından maraqlandı. Zabitlərə müvafiq tapşırıqlar verdi, uğurlar arzuladı.

Döyüş atışlı taktiki təlim başa çatandan sonra yenə də nəzəri məşğələlər keçirildi. Artilleriya sinfində tədbirin iştirakçısı olan zabitlərdən atış və atəşin idarə olunması üzrə həm fərdi, həm də divizion tərkibində atış və atəşin idarə olunması üzrə məqbullar qəbul edildi. Məqbulların qəbul edilməsi prosesinin səmərəliliyini və obyektivliyini artırmaq məqsədilə viziual görüntülər və videoçarxlar nümayiş olundu.

Nümunəvi xidməti ilə fərqlənən zabitlər komandanlıq adından qiymətli hədiyyələrlə mükafatlandırıldı.

Bir neçə gün davam edən təlim-metodiki toplanışa yekun vuran zabit İslam Əmrağayev ötən il ərzində raket və artilleriya qoşunlarında görülən səmərəli işlərdən, həyata keçirilən islahatlardan danışdı. İl ərzində əldə olunan uğurlu nəticələri də iştirakçıların diqqətinə çatdırdı. Həmçinin zabit yeni tədris ilində qarşıda dayanan vəzifələrdən də ətraflı bəhs etdi, zabitlərə müvafiq tapşırıqlar verdi.

Raket və artilleriya qoşunlarının rəhbər heyəti ilə keçirilən təlim-metodiki toplanışı başa çatdı. Qarşıya qoyulan tapşırıqlar yüksək səviyyədə yerinə yetiən Azərbaycan əsgəri güclü və qüdrətli olduğunu bir daha göstərdi. Təlim-metodiki toplanışda iştirak edən zabitlər keçirilən nümunəvi çalışma və məşğələlərdə yeni biliklərə, hərbi vərdişlərə yiyələndilər.

Vahid MƏHƏRRƏMOV
"Azərbaycan Ordusu"

Şəhid Elvin Kazımovun xatirəsinə həsr olunan anım mərasimi keçirildi

Tarixi torpaqlarımızın işğaldan azad olunması uğrunda canından keçən şəhid kapitan Elvin Kazımovun xatirəsinə ehtiram məqsədilə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində anım mərasimi keçirildi.

Mərasimdə Müdafiə Nazirliyinin və ictimaiyyətin nümayəndələri, şəhidin ailə üzvləri, dostları, döyüş yoldaşları və Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin əməkdaşları iştirak etdilər.

Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və Vətənimizin ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalan qəhrəmanlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Mərasim iştirakçılarına Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə başa çatan Vətən müharibəsindən, şəhid Elvin Kazımovun şərəfli ömür və döyüş yolundan bəhs edən videoçarx təqdim olundu.

Tədbirdə çıxış edənlər rəşadətli Azərbaycan Ordusunun qazandığı Zəfərdən, bu Qələbənin tarixi əhəmiyyətindən, Vətən müharibəsində Azərbaycan oğullarının qəhrəmanlığından və şəhid kapitan Elvin Kazımovun həyat və döyüş yolundan danışdılar.

Vətən müharibəsi qəhrəmanı polkovnik Nizami Mövlanov "Belə tədbirlər keçirildikcə şəhidlər yaşayacaq. Biz çalışmalıyıq ki, onların bizə əmanət etdikləri Vətəni şərəflə qoruyaq", - dedi. Zabit Azərbaycan xalqının igid və mərd xalq olduğunu vurğulayaraq, daim şəhidlərinə böyük hörmət və ehtiramla yad edəcəyini bildirdi.

Bildirildi ki, Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə Vətənimizin ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək, vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə kapitan Kazımov Elvin Ədalət oğlu ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif olunub.

Şəhidin anası Fədayə xanım Kazımova şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə təşəkkürünü bildirdi. Oğlunun xatirəsinin uca tutulmasının onun üçün vacib olduğunu söylədi. "Oğluma deyiləcək bir sözüm qaldı. Şəhadətin mübarək olsun, oğlum. Belə tədbir təşkil etdiyiniz üçün sizə təşəkkür edirəm".

Mərasimin sonunda Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistləri vətənpərvərliyi tərənnüm edən musiqilər ifa etdilər. Bədii hissənin davamı olaraq Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursantlarının ifasında şeirlər səsləndirildi.

Leytenant
İbrahim MƏMMƏDBƏYOV
"Azərbaycan Ordusu"

Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində seminar keçirilib

Müdafiə Nazirliyi Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası ilə birgə Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində "Psixoaktiv maddələrdən istifadənin risk amilləri" mövzusunda seminar təşkil edib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, seminar çərçivəsində psixoloq ixtisaslı zabitlərə psixoaktiv maddələrin xüsusiyyətləri, onların sağlamlığa zərərli təsiri və narkotik asılılığın formalaşma mərhələləri, o cümlədən profilaktik tədbirlərə dair fəaliyyət planı və narkotik vasitələrin qəbuluna şübhə yarandığı halda ekspress-diaqnostikanın aparılması barədə zəruri məlumatlar verilib.

Sonda Dövlət Komissiyasının daimi fəaliyyət göstərən işçi qrupu tərəfindən hazırlanan "Narkotik vasitələrdən və psixotrop maddələrdən sui-istifadə edən şəxslərin müəyyənləşdirilməsinə kömək üçün metodik tövsiyələr" adlı kitabça iştirakçılara təqdim edilib.

Əlahiddə Ümumqoşun Orduda "Ən yaxşı tank əleyhinə batareya" adı uğrunda yarış keçirilib

"Naxçıvan Qarnizonu Qoşunlarının 2021-ci tədris ilinə uzlaşma planı"na əsasən, keçirilən yarışda batareyaların şəxsi heyətinin tam təchizatı, fərdi və qrup halında normativləri yerinə yetirmə bacarıqları yoxlanılıb.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, yarışda tank təhlükəli istiqamətdə açılma hədlərinin tutulması, şərti düşmənin hərəkətli və hərəkətsiz hədəflərinin məhv edilməsi tapşırıqları yerinə yetirilib.

Ümumi nəticələrə əsasən tankəleyhinə idarəolunan raketlər batareyası birinci olub.

Qalib batareyanın şəxsi heyəti Əlahiddə Ümumqoşun Ordu Komandanlığı tərəfindən həvəsləndirilərək mükafatlandırılıb.

Məzun zabitlərə sertifikatlar verilib

Vətən müharibəsində qazandığı Zəfərlə Azərbaycan Ordusunun Cənubi Qafqazda ən güclü ordu olduğu bir daha təsdiqləndi. Onun sıraları gənc zabitlərlə komplektləşdirilməkdədir.

Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində ehtiyat zabit hazırlığı kursunun növbəti buraxılışı oldu. Ulu Öndərin və şəhidlərin ruhu bir dəqiqəlik sükutla yad edilib, Azərbaycanın Dövlət Himni ifa olundu. General-mayor Bəkir Orucov Azərbaycan Ordusunun döyüş və mənəvi hazırlığından, Ali Baş Komandanın müzəffər sərkərdəliyi ilə Vətən müharibəsində qazanılan Zəfərin hərbi, siyasi və mənəvi dəyərlərindən danışaraq, məzunları sertifikatlar almaları münasibətilə təbrik edib.

Zabit Mansur İbadov məzunların Azərbaycanın ərazi bütövlüyünü böyük məsuliyyətlə müdafiə edəcəklərinə əminliyini bildirib.

Məzun Mövlud Həziyev çıxışı zamanı zabit kimi xidmət etməkdən qürur duyduqlarını, zabit hazırlığı kursunda onların hərbi biliklərə yiyələnmələrində zəhməti olan hərbi qulluqçulara, Mərkəzin rəhbərliyinə məzunlar adından təşəkkürünü bildirib.

Məzunlara sertifikatlar təqdim edilib.

Tədbir məzunların təntənəli keçidi ilə başa çatıb.

"Azərbaycan Ordusu"

Rəşadətli Qələbə mənəvi dəyərlərin yüksəlişi və milli birliyin Zəfər rəmzidir

Azərbaycan 44 günlük Vətən müharibəsi nəticəsində bir tərəfdən Ermənistanın işğalçılıq siyasətinə son qoydusa, digər tərəfdən "yenilməz Ermənistan ordusu"nu darmadağın edərək erməni faşizminin əsas sütunu sayılan hərbi birləşmələrinə sarsıdıcı zərbə vurdu. Yüz ildən artıq zaman kəsiyində formalaşdırılan saxta döyüşkənlik mifi kökündən məhv oldu. BMT başda olmaqla, aparıcı beynəlxalq təşkilatların Azərbaycanın ərazi bütövlüyünün bərpası və sərhədlərinin toxunulmazlığı ilə bağlı qərar və qətnamələrinin icrasına yönələn bu əks-hücum əməliyyatı bir çox məqamlarla dünya hərb tarixinə yeni səhifələr açdı. İlk növbədə, Azərbaycan dövləti ərazi bütövlüyünün bərpası və müdafiəsi istiqamətində yeni fəaliyyət strategiyası ortaya qoydu. Azərbaycan çoxistiqamətli fəaliyyət strategiyası əsasında təsdiq etdi ki, dünyadakı ikili standartların və səngimək bilməyən geosiyasi maraqların bir çox hallarda beynəlxalq hüququ üstələdiyinə və güc amilinin ədalətdən yuxarıda dayanmasına baxmayaraq, dövlətlər öz haqq işini həyata keçirmək üçün, ilk növbədə, beynəlxalq hüquqa əsaslanmalıdır. Mövzunun davamı olaraq əvvəlcə Azərbaycanın rəşadətli Qələbəsini təmin edən mühüm istiqamətlərə diqqət yetirək: Əvvəla, Azərbaycan müasir standartlara cavab verən ordu yaratdı. Azərbaycan əks-hücum əməliyyatlarına qədər beynəlxalq hüququn tələb etdiyi bütün müstəvilərdə ərazi bütövlüyünü təsdiqləyən qərar və qətnamələrin qəbuluna nail oldu. Eyni zamanda, Türkiyə kimi qüdrətli və etibarlı tərəfdaş ölkə ilə münasibətləri strateji müttəfiqlik səviyyəsinə yüksəltdi. Həmçinin beynəlxalq iqtisadi layihələr əsasında bir sıra böyük ölkələrin regional maraqlarını tarazlaşdırdı və sair.

Ötən il sentyabrın 27-dən başlanan əks-hücum əməliyyatlarının ilk saatlarından başlayaraq Ermənistan ordusunun ağır zərbələr alması düşmən tərəfdə mənəvi-psixoloji sarsıntı yaratdı. Digər tərəfdən, Azərbaycan xalqının hakimiyyətə və orduya birmənalı dəstəyi Ermənistandakı təlatümü anbaan dərinləşdirməyə başladı. Ermənistan tərəfi cəbhə xəbərlərini yalan və uydurmaya söykədiyi halda, Azərbaycan Müdafiə Nazirliyinin videomateriallar əsasında cəbhədəki real vəziyyət barədə hər kəsdə, eləcə də Ermənistan ictimaiyyətində aydın təsəvvür yaratmağa başladı.

Şəhadət və şərafətin dərki

Vətən müharibəsi Azərbaycan xalqının bir çox milli mənəvi dəyərlərini dünya ictimaiyyətinə açıq şəkildə nümayiş etdirdi. Əhalinin böyük ruh yüksəkliyi ilə Vətən müharibəsinə bu və ya digər formalarda qoşulması xalqın Vətənə və torpağa bağlılığının əyani təzahürü idi. Analar oğullarını, bacılar qardaşlarını, körpə balalar atalarını "Qarabağ Azərbaycandır!" şüarı ilə cəbhəyə yola saldılar. Şəhadət və şərafətin milli varlıq naminə dərk edilməsi xalqın bütün təbəqələrini birləşdirdi. Bəli, Vətən müharibəsində əzəmətli Qələbə təsdiq edir ki, Azərbaycanın Qarabağ Zəfəri yalnız və yalnız Çanaqqala rəşadəti, şanlı Sakarya döyüşləri, İzmirin qurtuluşu kimi tarixi savaş səhnələri ilə müqayisə edilə bilər.

Hələ müharibədən xeyli əvvəl Ermənistan hərbi-siyasi rəhbərliyi bəyan edirdi ki, əgər rəsmi Bakı işğal altındakı torpaqları hərbi yolla azad etmək fikrinə düşsə, onların tankları paytaxtımızda olacaq. Dəlidən doğru xəbər! Terrorçu dövlətin rəsmi şəxslərindən ilk dəfə "doğru" xəbər eşitdik. Lakin onların tankları, topları, digər zirehli texnikaları Bakıya iddia etdikləri kimi deyil, əsir timsalında qənimət kimi gətirildi.

Ötən il dekabrın 10-da Bakının Azadlıq meydanında keçirilən Zəfər paradında Ermənistan ordusundan qənimət götürülən ağır zirehli texnikanın bir qismi nümayiş etdirildi. Hazırda Bakıdakı Hərbi Qənimətlər Parkında nümayiş etdirilən düşmənə məxsus hərbi texnika və silahların dili olsa, bu məkana ekskursiya edənlərə bitib tükənməyən erməni cinayətlərindən danışa bilər. Əlbəttə, əsas amil bu cinayətlərin hansı texnika ilə törədilməsi deyil, kim tərəfindən və hansı hisslərlə törədilməsidir.

Əcdadlarımızdan əmanət olan mərdlik və mətanətin savaş meydanında nümayişi

İşğalçı erməni faşistlərinin öz tanklarını Bakıda görmək arzusu, əslində, onların 1990-cı illərdə "Azərbaycanı Livana, Bakını Beyruta çevirəcəyik" hədəsinin davamı idi. İkinci Qarabağ müharibəsi Azərbaycan xalqının, türk millətinin Vətənə, torpağa olan tükənməz sevgi və məhəbbətini dünyaya nümayiş etdirərək onilliklər boyu erməni toplumundan bizə qarşı istifadə edən böyük gücləri lərzəyə gətirdi. Düşmən bu təlaşa 1988-ci ildə ermənilər Topxana meşəsini baltalamağa başlayanda bir dəfə də şahidlik edib. İndi isə o illər çox geridə qaldığı kimi, o dövrün ədalətsiz siyasi vəziyyəti də tarixinin arxivinə atılıb.

Vətən müharibəsi Azərbaycan xalqının çox nadir müsbət keyfiyyətlərini, o cümlədən əcdadlarımızdan əmanət qalan mərdliyini və mətanətini nümayiş etdirdi. Prezident İlham Əliyevin nəsillərə örnək olan "Sözümüz imzamız qədər dəyərlidir" ifadəsi müharibənin ən qızğın vaxtlarında Azərbaycan əsgərinin insanlıq və humanizm şüarına çevrildi. Səngərdə gizlənən düşmənə "Silahını yerə qoy, çıx, öldürmərəm səni" deyən azərbaycanlı igid düşüncəsi erməni terrorizmi ilə zəhərlənən, bəlkə də ağır cinayətlər törədən erməni hərbçini əsir götürdü və aidiyyəti qaydada təhvil verdi.

Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində yüksək peşəkarlıqla bərabər, bütün dünya üçün nümunəvi sayılan davranış nümayiş etdirdiyi gün kimi aydındır. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusunun ötən il qazandığı möhtəşəm Zəfər dövlətçilik tariximizin ən şanlı səhifələri sırasında öndə dayanır. Vətən müharibəsinin təntənəsi təkcə işğal altındakı torpaqların yağı düşməndən qurtuluşu deyil, eyni zamanda, Azərbaycan xalqının milli kimliyinin nə qədər yüksək olduğunun bütün dünyaya nümayişidir. Azərbaycan hərbçiləri düşmən ordusuna və onun bütün işğalçı nümayəndələrinə qarşı mərdlik və mətanət göstərdi. Baxmayaraq ki, biz bu münasibəti tarixin heç bir dövründə özümüzə qarşı görməmişik.

Vətən və yurd sevgisi milli istedadın güc qaynağıdır

Böyük Zəfərlə başa çatan Qarabağ müharibəsi, bu uğuru qazandıran cəhətlər, Azərbaycan xalqının bitib tükənməyən Vətən və yurd sevgisi uzun zaman kəsiyində tarixçilərin, sosioloq və analitiklərin müzakirə mövzusu olacaqdır. Ən azı ona görə ki, bu savaş təkcə böyük Qələbə ilə yaddaşlarda qalmadı, həm də Azərbaycan xalqının sonsuz yaradıcılıq istedadının incəliklərini ortaya çıxartdı. Aşağıda təqdim etdiyimiz faktlar bir daha göstərdi ki, Vətən və yurd sevgisi milli istedadın güc qaynağıdır:

- Prezident İlham Əliyevə məxsus "Qarabağ Azərbaycandır" şüarı onilliklər boyu dilimizin əzbəri olan "Vətən sağ olsun", "Şəhidlər ölməz, Vətən bölünməz" şüarlarına bayraqdarlıq edərək Zəfər yürüşünün qazanılmasında mənəvi birlik simvoluna çevrildi;

- Zəbt etdikləri azərbaycanlı evlərində uzun illər yaşayan bir neçə ermənin qaldığı otaqlardan Azərbaycanın görkəmli müğənnilərinin, incəsənət xadimlərinin fotoları, səs yazıları tapıldı. İbrətamizdir! Əgər düşmən sənin mahnılarına pərəstiş edərək musiqiçilərinin fotolarını əzizləyirsə, deməli, bu amil xalq olaraq sənin musiqinin gücünün göstəricisidir;

- Azərbaycanlı ata itkin düşən oğlunun bir neçə gün sonra tapılan cənazəsinə qurban kəsdi;

- Müharibədə bir qolunu itirib qazilik şərəfinə yüksələn gənc əsgər telekanalda canlı yayında dedi: Bəlkə də anam bu sözlərimdən inciyəcək. Ancaq kaş ki, mən şəhid olardım, amma evli cəbhə yoldaşlarımdan biri ailəsinin yanına dönərdi;

- Şəhid qardaşından sonra ərinin də şəhadət zirvəsinə yüksəldiyini eşidən gənc gəlin həyat yoldaşının tabutunu çiynində daşıdı;

- Ana aman-zaman bircə oğlunun cənazəsini toy evi kimi bəzədiyi bəy otağında qarşıladı;

- Vətənə, torpağa, Müzəffər Ali Baş Komandana, Yenilməz Orduya məhəbbəti tərənnüm edən, rəzil düşmənə kim olduğumuzu göstərən məzmunlarda musiqilər bəstələndi, meyxanalar qoşuldu;

- Mahnıların sözləri havaya uyğun oxundu və sevə-sevə qarşılandı. Altmış ilin mahnısı "Xudayar təsnifi!" adını qazandı.

İnsan talelərini, ailə dramlarını özündə əks etdirən yuxarıda sadaladığımız gerçək epizodların hər biri milyonların qəlbini fəth edə biləcək bioqrafik hekayələrin əsas süjetidir. Bu epizodların heç biri digərini təkrarlamır, amma tamamlayır, biri digərinə güc və qüdrət gətirir...

1990-1993-cü illərdə torpaqlarımızı işğal edən erməni quldurlar da terror gücünə qazandıqları "qələbə" ilə bağlı çoxlu videolar yaydılar. Elə torpaqlarımızı işğal altında saxladıqları illərdə də milli heysiyyətimizə toxunan "şənliklər" düzəltdilər. Lakin bunları heç biri, hətta həmin "şənliklər"dəki musiqi alətləri və mahnılar, rəqs havaları belə ermənilərə "məxsusluğu" sübuta yetirmədi. Otuz illik işğalçılıq tarixində təcavüzkar Ermənistan, onu bu və ya digər formada təmsil edənlər dağıtmaqdan, yandırmaqdan, talan etməkdən başqa nə bacardılar? Zaman-zaman musiqimizi mənimsəyən, mədəniyyətimizə əl uzadan, hətta ad və toponimlərimizi bir hərf dəyişikliyi ilə ermənileşdirməyə çalışan bu toplumun nümayəndələri niyə o dağlarda, meşələrdə səfalı bulaqların başında yaddaqalan, insanların zehnini oxşayan hadisələr yarada bilmədilər? Çünki bu torpaqlarda heçnə ermənilərə aid deyil, hər şey onlara yaddır.

Vətən müharibəsindən sonra Azərbaycan xalqının şəhidlərin əziz xatirəsinə və qazilərə göstərdiyi ehtiram, onların ailələrinə və övladlarına verilən hərtərəfli dəstək Azərbaycanda dövlət, Vətən və vətəndaş anlayışlarının bir-birinə sarsılmaz bağlı olduğunu göstərdi.

"Şəhidini tanı", "Zəfər yolunun qəhrəmanları", "Könüllü qəhrəmanların oktyabr görüşü", "Tut əlimdən", "Qələbə qaçışı", "Tarixi zəfərimizin əsasları", "Zəfərin keşikçiləri", "Dəmir yumruq" və sair məzmunlu müxtəlif layihələr və tədbirlər bütün vətəndaşları mənəvi tellərlə özündə birləşdirməyi bacardı.

Dahi şair, böyük filosof Nizami Gəncəvi yazırdı:

Maqnit olmasaydı eşqin əsiri,
Çəkməzdi özünə dəmir zənciri.
Kəhrəbanın eşqə düşməsə canı,
Belə cəzb etməzdi quru samanı.

Bəli, eyni məntiqlə bir daha deyə bilərik ki, torpaq və Vətən ilə onların əsl sahibi arasındakı eşq cazibəsi hər zaman bütün sahələrdə qurub yaratmaq səltənətini yüksəldir. Hətta uğrunda ölməyə hazır olduğun Vətənin döyüş meydanında da!

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışlarından birindəki ifadələrə müraciət edək: "Hadrut qəsəbəsinə baxdıqda hər kəs bir daha görür ki, ermənilər bu torpaqları özləri üçün doğma torpaq saymırdılar. Çünki baxın, nə gündədir Hadrut… Yəni, kütləvi səfalət hökm sürüb, bir daş daş üstünə qoyulmayıb. Görün yollar, binalar nə gündədir".

Azərbaycanın Vətən müharibəsi böyük Zəfərlə başa çatıb. Amma daha böyük savaşlar hələ qabaqdadır. Qarşıda bizi gözləyən yüksək intellektin, elm və biliyin, düzgün siyasətin, zərif diplomatiyanın və yüksək texnologiyalara sahib olmağın savaşıdır.

İstəsək də, istəməsək də Azərbaycan və Türkiyə olaraq iki yüz illik saxta tarixi olan "böyük Ermənistan" iddiası ilə üz-üzəyik. Bu iddia ortaya çıxanda nə ermənilər indiki Ermənistan coğrafiyasına köçürülübdülər, nə də Ermənistan dövləti var idi. İndi işğalçı Ermənistanın təcavüzkar ordusu məhv edilib. Amma saxta "böyük Ermənistan" iddiası erməni toplumunun beynindən təmizlənməyib. Ermənistan dövlətinin varlığı da sual altına düşüb. Amma nə erməni din xadimləri, nə də erməni lobbisi "mehriban qonşuluq və səmimi dostluq" adlı sağlam düşüncə konsepsiyasını qəbul etməyiblər. Terrorçu Ermənistanın və erməni lobbisinin üzdə onlara faydalı görünən, əslində isə, yalnız öz maraq və mənafeləri üçün çalışan havadarları heç zaman niyyətlərindən çəkilməyəcəklər. Onların biri zəifləsə, yerini başqa biri tutacaq və hər zaman mövcud olacaqlar. Ona görə də azərbaycanlı, türk və müsəlman olaraq xalqlarımızı, dövlətlərimizi qorumaq və inkişaf etdirmək ən böyük hədəfimiz olmalıdır.

Sabir ŞAHTAXTI
AZƏRTAC-ın xüsusi müxbiri

Media-turlar Zəfərin mahiyyəti üçündür

Bütün müharibələr torpağa görə başlasa da, işğalçılıq vətənpərvərliyə heç zaman qalib gələ bilməyib. Bu, vətənpərvərliyin müqəddəsliyə sədaqətinin qanunauyğunluğudu.

Vətən müharibəsindən əvvəl Vətən müharibəsinə görə yaşanılanlar Vətən müharibəsindən sonra yaşanılanların ovqatını nişan verirdi. Həmin ovqatda bayrağımız dalğalanırdı. Hamı "Sancır Şuşada torpağa bayraq, daşa bayraq!" - deyirdi. Bu məqam çox böyük könül xoşluğu ilə yaşanılırdı...

Tarix təsdiqləyir ki, bəşəriyyət ədalətsiz müharibələri, ədalətsiz müharibəyə aparan dövlətləri həmişə lənətləyib, ədalətli müharibə aparan dövlətlərə haqq qazandırıb. On illər, yüz illər keçəndən sonra da dünyəvilik bu qınaqların, bəraətlərin zərrəcə azalmasına imkan verməyib...

Ermənilik xisləti müharibə deməkdi - ya gizlin (təxribatlar formatında), ya da aşkar (müharibə, müharibəyə uyğun hərbi əməliyyatlar formatında), Azərbaycanın da, Türkiyənin də, Gürcüstanın da ərazisində belə boy göstərib. Bəzən türkə (türkçülüyə) qarşı yönələn bu xislət özünü digər dövlətlərdə də göstərib. Ermənistan 2020-ci ilin 10 noyabrında məğlub oldu, məğlubiyyət sənədini imzaladı, ancaq o ərəfədən indiyəcən erməniliyini davam etdirir. Cənubi Qafqazda məskunlaşmağa başladığı vaxtlardan belədi - ermənilik fürsət düşkünüdü, əlinə keçən fürsəti ermənliyə vasitə edir.

Milli ruh həmişə əsgərin döyüş növbətçiliyindədi:

Ötən əsrin əvvəllərində "erməni-müsəlman davasında" (müharibəsində) borçalılılar da iştirakçı olublar. Günlərin birində soraq çıxır ki, erməni silahlıları Gümrüdən, Calaloğludan bu tərəflərə gəlir, yəqin ki, buradan keçib Qazaxa, Tovuza, Gəncəyə döyüşməyə getməyə niyyətlidirlər. Borçalılılar Azərbaycanda müharibə aparan erməni silahlılarına köməyə göndərilənlərin qarşısını Faxralı kəndinin Saraclı kəndi səmtində kiçik bir təpəliyin ətəyində kəsirlər. Qızğın atışma olur. Döyüşdə erməni yaraqlılarının çoxu öldürülür, sağ qalanlar qaçır. Bu təpəlik həmin vaxtdan "Erməni qırılan" adlanır. Gürcüstan hökuməti bu hadisə ilə bağlı heç kimi suçlamayıb; "Arığın qoruqda nə işi vardı ki, vurub qıçını qırırdılar".

Gürcüstan hökumətinin məhz bu (və bu kimi) hadisəyə (hadisələrə) görə bəşəri mövqesi ədalətsiz müharibənin sonlandırılması istəyi olub. Mənim yaşımdan çox illər əvvəl də "Erməni qırılan" yeri görməyə onlarla jurnalist, tarixçi gəlib. Onların bəzilərini mən də görmüşəm. Söhbət elə - diklərim də olub. Bu gəliş - lərin istər siyasi, istərsə də tarixi nəticəsi bir mətləbin dərkində vəsilə olub: şər məğlubiyyətə məhkumdur. O gəlişlər eyni vaxtda, təşkilati şəkildə olsaydı, ona, müasir adlandırma kimi, media-tur deyilərdi. Yəni, media-tur baş verən hadisə haqqında hadisə yerindən ictimaiyyətə dürüst informasiya vermə missiyasıdır.

Atəşkəs olsa da, Azərbaycanda müharibə davam edirdi - düşmən hər gün atəşkəsi pozurdusa, həm dövlət sərhədlərindən, həm də işğal etdiyi ərazilərdən təxribat formalı əməliyyatlar keçirirdisə, şərait müharibə şəraiti, Ermənistan hərbi birləşmələrinin Azərbaycana qarşı əməliyyatları müharibə idi; dünya ictimaiyyəti (dünyanın aparıcı dövlətləri) görürdü ki, işğalçılıq termini ilə ermənilik termini eynidi. Bu eynilik Bağanis Ayrımda təzahür edibdi, Ağdabanda, Qaradağlıda, Meşəlidə, Xocalıda təzahür edibdi. Bu eynilik 2016-cı ilin aprelində də, 2020-ci ilin iyulunda da dikəlibdi, ağır itkilər versə də, xislətindən əl çəkməyibdi. Ermənistan silahlı birləşmələri 2020-ci ilin 27 sentyabrında müxtəlif istiqamətlərdən hücuma keçibdi. Azərbaycan Ordusu bu hücumun qarşısını qətiyyətlə alıbdı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin əmri ilə əkshücum əməliyyatı, nəticə etibarilə Vətən müharibəsi başlayıbdı. Dövlət başçısı xalqa müraciətində dünya dövlətlərinin, bu sıradan işğalçı Ermənistana havadarlıq edən dövlətlərin nəzərinə çatdırırdı ki, bizim davamız ədalətli davadır və əminəm ki, bu müharibədə biz istədiyimizə nail olacağıq, haqq-ədalət öz yerini tapacaq və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək.

Vətən müharibəsində döyüşlərdən reportajlar hazırlamaq niyyəti ilə yerli və xarici jurnalistlərin müraciətlərinin hamısını təhlükəsizlik tədbirlərinə görə yerinə yetirmək mümkün deyildi. Xarici jurnalistlərin Vətən müharibəsi haqqında yazdıqlarının əksəriyyətinin fakt mənbəyi belə media-turlar olurdu; media-turlar zamanında Vətən müharibəsinin tarixinin yazılmasında vəsilə oldu.

Ermənistan bəşəri dəyərlərə məhəl qoymadan Vətən müharibəsində Gəncəyə, Bərdəyə, Naftalana, Mingəçevirə raketlər atdı, onlarla dinc vətəndaş həlak oldu, binalar dağıdıldı. Onda xarici ölkələrin Azərbaycandakı səfirliklərinin nümayəndələrinin, Azərbaycanda akkreditə olunan jurnalistlərin hadisə yerinə gedişi təşkil edildi. Buna, müəyyən mənada, media-tur da demək mümkün idi; dünya ictimaiyyəti hadisə haqqında hadisə yerindən müfəssəl informasiya ilə təmin edildi. Bu, mətbuatın yerinə yetirdiyi vəzifə borcu kimi tarixləşdi.

Vətən müharibəsi Zəfərlə başa çatdı. Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etdi.

Müdafiə Nazirliyinin Mətbuat Xidmətinin təşkil etdiyi media-turlar Vətən müharibəsində qazanılan Zəfərin mahiyyəti haqqında istər yerli, istərsə də xarici jurnalistlərə daha şəbəkəli informasiyavermə, Azərbaycan gerçəkliklərini faktlar əsasında ictimailəşdirmə niyyətinin təzahürüdür. Belə turlar, əslində, cəmiyyətə və beynəlxalq ictimaiyyətə işğaldan azad edilən ərazilərdə ermənliyin izləri haqqında gerçək informasiyavermə missiyasıdır. Qəzetimizin əməkdaşlarının da iştirak etdiyi belə turlar təkcə informasiya əldə etmə, əldə edilən informasiyaları ictimailəşdirmə niyyəti deyil, belə turlar həm də iştirakçıların hadisənin baş vediyi məkanda fikir mübadiləsi deməkdir. Fikir mübadiləsi isə özlüyündə baş verən hadisənin təkcə mahiyyətinin deyil, həm də onu yaradan səbəblərin fəlsəfəsi (dialektikası) haqqında müfəssəl mülahizələr müstəvisində reallığın dərki deməkdir.

Vətən müharibəsindən sonra məlum oldu ki, düşmən işğal olunan əraziləri talan edib, qəddarcasına dağıdıb. Belə qəddarlıqlar son yüz ildə heç bir müharibədə edilməyib. Ermənilərin törətdiyi dağıntılar sıradan dağıntı deyildi, bu dağıntılar ermənliyin müqayisəsi olmayan təzahürü idi. Necə dağıdılıb? Necə dağılıb? - bunlar məhz dünya ictimaiyyətinə media-turlar vasitəsilə bu və ya digər mətbu orqanlar, bu və ya digər televiziya kanalı ilə, bu və ya digər saytla çatdırılırdı, ictimailəşdirilirdi. Bu ictimailəşdirilmə mətbuatın Vətənə xidmətidi, yəni, media-tur Vətənə xidmət missiyasıdı.

Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda, Kəlbəcərdə quruculuq işlərinin coğrafiyası da, səviyyəsi də ictimaiyyəti maraqlandırıb.

Zəfərdən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin işğaldan azad edilən rayonlarımıza səfərləri, bu səfərlərdə çıxışları ictimaiyyətin Zəfər ovqatının məntiqi davamı olurdu.

"...şəhərin girəcəyində düşmən hərbi baza yaratmışdı. Bu yüksəkliklərdə düşmənin hərbi birləşmələri yerləşmişdi. Ona görə Qubadlı şəhərini azad etmək o qədər də asan məsələ deyildi. Gərək, ilk növbədə, ermənilərin istehkamları məhv ediləydi, onlardan biri Xanlıq qəsəbəsində yerləşirdi. Orada güclü istehkam qurmuşdular və Xanlıq qəsəbəsini onlar özləri üçün bir baza kimi yatarmışdılar. Xaricdə yaşayan ermənilər orada qəsəbə salmışdılar. İndi bu qəsəbədə Azərbaycan əsgərləri yerləşib" (23 dekabr 2020-ci il), "Əgər biz güclü müstəqil dövlət olmasaydıq, öz tarixi torpaqlarımızı işğalçılardan azad edə bilməzdik. Ancaq güclü Azərbaycan, müstəqil Azərbaycan, sözün əsl mənasında, müstəqil siyasət aparan Azərbaycan bu tarixi missiyanı şərəflə yerinə yetirdi" (28 may 2021-ci il), "...indi Zəngilanın yeni dövrü başlayır və şəhərin baş planı artıq hazırlanır. Bir xarici şirkət müsabiqədə qalib gəldi və hesab edirəm ki, yaxın aylarda baş plan təqdim ediləcək. Bütün bu təbii gözəllik nəzərə alınaraq müasir, çox gözəl bir şəhər qurulacaq, həmçinin də kəndlər. Siz də bilirsiniz ki, azad edilmiş bütün torpaqlarda birinci "Ağıllı kənd" layihəsi həyata keçirildi" (21 oktyabr, 2021-ci il) və s. kimi tarixləşən fikirlərin işığı və vəzifə borcu jurnalistikanı (medianı) işğaldan azad edilən ərazilərə çəkirdi. Bu rayonlara təşkil edilən media-turların iştirakçıları əmin olurdu və oxucularını, oxucularının timsalında ictimaiyyəti əmin edirdi ki, bu fikirlər təkcə bu günlər üçün deyil, həm də sabahlar üçün deyilib. Media-turlar bu qənaətin, bu qənaətlə bir sırada Azərbaycan gerçəkliklərinin ifadəsi olurdusa, əlbəttə ki, həqiqətsevərlər, dövlətçilik təsisatlarına bələd olanlar ona "gərəkli təşəbbüsdür" deyəcəklər. Doğru sözün, dürüst sözün işığında...

Rəşid HÜSEYNOV
"Azərbaycan Ordusu"

Xəbərlər: hadisələr, faktlar

Türkiyədə ağır terror aktının qarşısı alınıb

Türkiyənin Mardin vilayətinin Nusaybin rayonunda ağır terror aktının qarşısı alınıb.

Türkiyə KİV-ləri xəbər verir ki, Nusaybindəki Çevik Polis Alayında xidmət edən zabitlərdən birinin şəxsi avtomobilinin altına yerləşdirilən əldədüzəltmə bomba zərərsizləşdirilib. Bildirilir ki, bomba üzərindəki əl izləri götürülüb və digər sübutlarla birlikdə cinayətkarın axtarışına başlanılıb.

Məqsəd Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Siirt şəhərində keçirilən mitinqdə terror aktı törətmək olub.

Qeyd edək ki, Mardin və Siirt qonşu vilayətlərdir. Ehtimala görə, avtomobilinin altına bomba yerləşdirilən zabit Siirtdəki mitinqin təhlükəsizliyinə təhkim olunan şəxslərdən biridir və terrorçular bundan məlumatlı olublar. Bombanın zərərsizləşdirilməsi böyük faciənin qarşısını alıb.

Serbiya Rusiyadan yeni növ "Pantsir" zenit-raket kompleksi alacaq

Serbiyanın daxili işlər naziri Aleksandr Vulin ölkəsinin Rusiyadan yeni növ "Pantsir" hava hücumundan müdafiə sistemi alacağını açıqlayıb.

Moskvada Rusiyanın müdafiə naziri Sergey Şoyqu ilə görüşən A.Vulin ölkəsinin Rusiyadan "Kornet" (tank əleyhinə raket sistemi), tanklar, zirehli transportyorlar tədarük etdiyini bildirib. O, həmçinin Rusiyadan yeni növ "Pantsir" zenit-raket kompleksinin də alınacağını deyib.

Ötən ilin fevralına qədər Rusiya Serbiyaya 6 ədəd "Pantsir" sistemi tədarük edib. Serbiya ordusunda Rusiya istehsalı olan 6 "Miq-29" döyüş təyyarəsi, helikopterlər və hava hücumundan müdafiə sistemləri var.

İraqın cənubunda minalanan avtomobil partladılıb

İraqın cənub-şərqində yerləşən Bəsrə şəhərində minalanan avtomobil partladılıb.

Al-Sumaria telekanalı xəbər verir ki, partlayış nəticəsində azı yeddi nəfər həlak olub. Telekanalın məlumatına görə, partlayış Bəsrə şəhərindəki xəstəxanaların birinin yaxınlığında yerləşən restoranın qarşısında törədilib.

İlkin məlumata əsasən, yeddi nəfər həyatını itirib. Hadisənin digər təfərrüatları barədə hələlik açıqlama verilməyib.

İranda silah qaçaqmalçılığının qarşısı alınıb

İran İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) həyata keçirdiyi xüsusi əməliyyat nəticəsində silah qaçaqmalçılarının ölkəyə qanunsuz yollarla silah keçirmələrinin qarşısı alınıb.

Xuzistan vilayətində keçirilən əməliyyat zamanı 43 tapança, 1 pulemyot, "Kalaşnikov" markalı 2 avtomat silah, 4 ov tüfəngi və bu silahlara aid patronlar müsadirə olunub.

SEPAH-ın açıqlamasında qeyd olunub ki, bu silahlar İranın bəzi vilayətlərində ictimai-siyasi sabitliyi pozmaq məqsədilə ölkə ərazisinə gizli yollarla gətirilib. Hadisə ilə bağlı saxlanılanlar var. Hazırda iş üzrə araşdırmalar aparılır.

AZƏRTAC-ın
materialları əsasında

Məişət

"Əsgərlərimizə xidmətdən qürur duyuruq"

Azərbaycan Ordusunda xidmət edən hərbi qulluqçuların əsas vəzifəsi Vətənin keşiyində dayanmaqdır. Hərbçilərin xidmətlərinin yüksək səviyyədə təşkilinə nail olmaq məqsədilə hərbi hissələrdə sosial-məişət şəraitinin yüksək səviyyədə qurulmasına xüsusi diqqət ayrılır. Hərbçilərimizə göstərilən qayğı bir məqsədə, bir amala onların öz xidməti vəzifələrinə köklənməsinə və böyük uğurlarının zəminə xidmət edir.

"N" hərbi hissəsində yaradılan şəraitlə tanış olarkən əsgərlərin sosial-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə yaradılan camaşırxanaya baş çəkdik. Burada mövcud olan səliqə-sahman, təmizlik aparılan işin yüksək səviyyədə olduğundan xəbər verir. Öyrənirik ki, camaşırxanada çalışan işçi heyət qadınlardan ibarətdir. Onlar vəzifələrinə diqqətlə yanaşır, müasir tələblərə cavab verən camaşırxana işlərinin öhdəsindən bacarıqla gəlirlər.

Camaşırxananın iş prosesini izləyirik. İlkin olaraq çirkli camaşırlar yuyulub qurudulur, sonra isə ütülənib çeşidlənir. "Biz əsgərlərimizə xidmətdən qürur duyuruq. Onların hər biri Vətənimizin, xalqımızın övladıdır. Bizim də üzərimizə düşən onlara yüksək diqqət və qayğı göstərməkdir. Bu üzdən hər birimiz camaşırların təmizliyinə və yuyulma prosesində gigiyena qaydalarına əməl edilməsinə önəm veririk", - deyən Lətafət Süleymanova bizi camaşırxana qurğuları ilə tanış etdi.

Ütü operatoru vəzifəsində işləyən Zülfiyyə İsmayılova işin incəliklərindən söz açaraq bildirdi ki, bizim vəzifəmiz yataq dəstlərinin səliqəli ütülənməsindən ibarətdir. Ütülənən əşyalar səliqəylə qatlanıb yığılır. Bu prosesdə paltarların və yataq dəstlərinin təmizliyi bir daha diqqətlə nəzərdən keçirilir.

Əsgərlərə qayğıyla yanaşan işçi heyətini yaxından tanıdıqdan sonra işlərinin əsl peşəkarları olduqlarına bir daha əmin oluruq. Görülən işləri zövqlə, yorulmadan yerinə yetirmələri Vətən keşikçilərinə olan sonsuz məhəbbətin təzahürüdür. Operator Tükəzban Cəfərova isə dedi ki, bizə qələbə sevincini yaşadan hər bir oğula minnətdarıq. Sevincimizin həddi-hüdudu yoxdur. Axı biz qalib xalqıq. İşimizi layiqincə yerinə yetirməyə çalışır, əsgərlərə xidmətimizlə fəxr edirik. 44 günlük Vətən müharibəsi başlayanda biz də gecə-gündüz durmadan çalışdıq. Çəkdiyimiz əziyyətlər qarşılıqsız qalmadı, qələbə bizim oldu. Bu sevinci bizlərə məhz Azərbaycan Ordusunun hər bir döyüşçüsü qazandırdı".

Hüsniyyə İDRİSOVA
"Azərbaycan Ordusu"
fotolar
çavuş
Namiq PƏNAHOVUNDUR

Asudə vaxt

Vətən sevgisi bizi qələbələrə apardı

Ölkəmizin ərazi bütövlüyünə qarşı erməni təcavüzü 30 ilə yaxın davam etdi. Bu illər ərzində Vətən övladları bir an belə Qarabağı unutmadı. Vətən həsrəti dinmədi, Qarabağ kəlməsi dillərdən düşmədi. Qəlblərdə illər uzunu kök atan Vətən sevgisinin düşmən üzərində Qələbəyə yol açacağı şübhəsiz idi.

Ordumuzda şəxsi heyətinin vətənpərvərlik ruhunun artırılmasında peşəkar zabitlərin rolu böyükdür. Onlar təhsil aldığı illərdə, mənəvi-psixoloji cəhətdən döyüş hazırlığına yiyələndilər. Bu gün hərb işini mükəmməl bilən, öz peşəsini yüksək səviyyədə sevən, bacarıqlı zabitlərin tabeliyində xidmət keçən əsgərlər taktiki, atəş, mühəndis, fiziki və s. hazırlıqları ilə bərabər asudə vaxtlarını da maraqlı keçirirlər. Onlar Vətənə sevgisini ilk dəfə ailədə, orta məktəbdə öyrənsələr də bunu hərbi xidmətdə tamamlayırlar.

Hazırda yeni tikilib istifadəyə verilən hərbi hissələr dövrün tələblərinə cavab verir. Əsgər yataqxanasında silah-sursat otaqlarıyla yanaşı ideoloji otaqlar da fəaliyyət göstərir. İdeoloji otaqda dövlətimizin rəmzləri, ulu öndər Heydər Əliyevin həyatı və siyasi fəaliyyəti, Müdafiə Nazirliyinin rəhbər heyəti, barədə dolğun məlumatlar var. Xalqımızın ümummilli lideri Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra ordumuzda aparılan məqsədyönlü, uğurlu islahatlar ölkəmizin daha da güclənməsinə səbəb olub. Hərbçilər asudə saatlarında sinifdə olurlar, orada asılan lövhələrdə qədim və orta əsrlərdə mövcud olan Azərbaycan dövlətləri, onların sərkərdələri haqqında məlumatlar, oxuyub müfəssəl biliklər əldə edirlər. Azərbaycanın tanınmış, görkəmli sərkərdələrin portretləri, onların keçdiyi döyüş yolu barədə geniş məlumat yer alıb. Əsgərlər burada daha dolğun məlumatlar əldə etməklə müasir Azərbaycanı olduğu kimi öyrənirlər.

Şəxsi heyətdə vətənpərvərlik ruhunun daha da artırılması üçün əyani dərs vəsaitlərindən də istifadə olunur. Zabit və əsgərlər bu vəsaitlərdən yetərincə yararlanırlar.

"N" hərbi hissəsində asudə vaxtın təşkili zamanı baş leytenant Arzu Rəhimovla söhbət edərkən bəlli oldu ki, o da, 44 günlük Vətən müharibəsində fəal iştirak edib. Düşmənə sarsıdıcı zərbələr vurub. Zabit müharibənin ilk günündə Füzuli istiqamətində döyüşlərə atılıb. Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və Laçın rayonlarının düşməndən azad olunmasında Arzunun böyük xidmətləri olub. O, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sərəncamına əsasən 3-cü dərəcəli "Rəşadət ordeni" ilə təltif olunub.

Ordenli zabitin şəxsi heyətə keçdiyi döyüş hazırlığı məşğələləri və asudə vaxtının mənalı və keyfiyyətinin yüksək olacağına əmin idik. Əsgərlərin zabiti maraqla dinləməsi təqdirə layiq idi.

Asudə vaxtda Mail Qarayev, Fərid Abuşzadə, Kamal Musazadə, Ayaz Heydərov, Fərid Nəbiyev, Elşən Süleymanlı və başqaları da baş leytenant Arzu Rəhimovun söhbətlərini maraqla dinləyirdilər. Əsgərlərlə söhbətimiz zamanı bildirdilər ki, illər uzunu erməni işğalı altında olan ərazilərimiz azad olunub. Mənfur düşmən torpaqlarımızdan qovulub. Bizlərin bundan sonrakı əsas vəzifəsi Vətənimizin hər qarış torpağını mətinliklə qorumaqdır. Bunun da tək bir yolu hər an döyüşə hazır olmağımızdır.

Xalqı Qarabağa qovuşduran Azərbaycan əsgərinin qəlbində daim Vətənə sonsuz məhəbbət yaşayır. Bu məhəbbət, bu sevgi idi, əsgəri qələbəyə aparan.

Vətən sevgisi ilə köklənən Azərbaycan əsgəri tutduğu mövqedən heç nə çəkindirə bilməz. Vətən sevgisi bizi qələbələrə apardı.

Bəxtiyar ƏLİYEV
"Azərbaycan Ordusu"
foto
çavuş
Namiq PƏNAHOVUNDUR

İdman

Azərbaycan millisi "TeamGym" üzrə Avropa çempionatında beşinci olub

Portuqaliyanın Quimareş şəhərində "TeamGym" üzrə Avropa çempionatı keçirilib.

Yarışda ölkəmizi "TeamGym" gimnastika növü üzrə təmsilçilərimiz - Ağamurad Qəhrəmanov, Tofiq Əliyev, Adil Hacızadə, Rəsul Əhmədzadə, Elnur Məmmədov, Ramin Dəmirov, Anar Həsənov və Mənsum Səfərov təmsil ediblər.

Ölkəmiz üçün yeni olan gimnastika növünün nümayəndələri finalda çıxış edərək, həlledici mərhələdə 5-ci yerdə qərarlaşıblar.

"TeamGym" "Avropa Gimnastikası"na aid komanda yarışı növüdür. Azərbaycan Gimnastika Federasiyası (AGF) 2018-ci ilin əvvəlində "TeamGym" növünü öz fəaliyyətinə daxil etməyə qərar verib. 2018-ci ilin oktyabrında yığma komandamız ilk dəfə "TeamGym" üzrə Avropa çempionatına qatılıb (Odivelaş, Portuqaliya) və gənclər yaş kateqoriyasında mübarizə aparıb.

Şahmatçılarımız Avropa çempionatının final mərhələsinə vəsiqə qazanıblar

Şahmat üzrə məktəblilərin Avropa çempionatında ilkin mərhələyə yekun vurulub.

Onlayn formatda keçirilən yarışda Azərbaycanı 25 şahmatçı təmsil edib.

Turnirdə oğlan və qızlar 10, 11, 13, 15 və 17 yaş qruplarında mübarizə aparıblar.

Şahmatçılarımızdan Əhməd Xaqan, Paşam Əlizadə (10 yaş), Lalə Hüseynova (11 yaş), Nərmin Abdinova (13 yaş), Şiroğlan Talıbov, Hüseyn Seyid (15 yaş), Uğur İlyaslı (17 yaş) Avropa çempionatının final mərhələsinə vəsiqə qazanıblar.

İki karateçimiz Dünya Oyunlarına vəsiqə qazanıb

Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində böyüklərin 25-ci dünya çempionatının mükafatçıları İrina Zaretska (68 kq) və Asiman Qurbanlı (+84 kq) XI Dünya Oyunlarına vəsiqə qazanıblar.

XI Dünya Oyunlarının karate yarışları 10 çəki dərəcəsi və kata çıxışları üzrə keçiriləcək. On iki kateqoriyanın hər birində 8 karateçi mübarizə aparacaq. Hər kateqoriyada ilk "üçlük" dünya çempionatının mükafatçılarından ibarətdir. Digər 3 yer dünya reytinqində ilk pillələri tutanlara, qitə çempionlarına, daha bir lisenziya isə təşkilatçı ölkənin təmsilçisinə veriləcək.

Oyunlar 2022-ci il iyulun 7-dən 17-dək ABŞ-ın Birmingem şəhərində keçiriləcək. Bu nüfuzlu yarışda 100-dən artıq ölkədən 3 mindən çox idmançının çıxışı gözlənilir. Oyunların karate yarışları iyulun 8-9-da keçiriləcək.

AZƏRTAC-ın
materialları əsasında

Baş leytenant Salmanov Tərlan Babək oğluna məxsus MN № 0047388 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları çavuş Əzizov Samir Sabir oğluna məxsus AD № 0038318 nömrəli, çavuş Baxşəliyev Tofiq Gündüz oğluna məxsus AD № 0005365 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Əsgər Dəmirov Rüfət Fikrət oğluna məxsus SX № 0577609 nömrəli hərbi bilet itdiyi üçün etibarsız sayılır.

Baş redaktorun müavini
kapitan
Məhəmməd NƏSİRLİ

Telefonlar
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

Ünvanımız
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

Növbətçi
Lalə HÜSEYNOVA

Qəzetin hesabı
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 787
Nüsxə 4044